# 2010-cu il iyunun 26-da Brüssel şəhərində imzalanmış «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş»in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il iyunun 26-da Brüssel şəhərində imzalanmış «Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Makedoniya Respublikası Gömrük İdarəsi arasında kadrların peşəkarlığının artırılması və təkmilləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Saziş» təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Makedoniya Respublikası tərəfini xəbərdar etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 13 avqust 2010-cu il***

***№ 1061***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (14 avqust 2010-cu il, № 176) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 avqust 2010-cu il, № 8 (158), maddə 736) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*